# Bülbülün nəğməsi

*Mus.: Cahangir Cahangirov, söz.: Abdulla Şaiq*

**Moderato**








Quşlar şahı şux bülbüləm,
Saz çalmaqdır peşəm mənim.
Çiçəklərin qucağıdır
İlk baharda ilk Vətənim.

Quşlar mənim məclisimə
Dimdiyində bağ gətirir,
Bahar mənə ətir saçan
Çiçəklərdən tac gətirir.

Mən səadət carçısıyam,
Könül açan xoş səsim var.
Vətən deyə ötəcəyəm,
Nə qədər ki, nəfəsim var.

